View metadata, citation and similar papers at core.ac.uk
brought to you by CORE
provided by Khazar University Institutional Repository

Validə Kərimova, Ph.D.
Azərbaycan Universiteti, “Xarici dillər” kafedrasının müəllimi
E-mail: kerimovavalide@yahoo.com

# FƏLSƏFƏDƏ RASİONALİZM CƏRƏYANI VƏ KARTEZİAN DİLÇİLİYİ: “N. XOMSKİ İHERARXİYASI”-NA İSTİNADƏN

***Açar sözlər:*** *Kartezian dilçiliyi, N. Xomski iherarxiyası, alt və üst qatlar, səriştəlilik və səmərəlilik.*

***Keywords:*** *Cartesian linguistics, N. Chomsky hierarchy, deep and surface structure, competence and performance.*

**Xülasə**

Təqdim edilmiş araşdırma işində məşhur və nüfuzlu Amerika dilçisi Noam Xomskinin dilin yaradıcı olması prinsipi, özünü “Kartezian dilçiliyi”-nin davamçısı elan etmiş N. Xomskinin buna münasibəti və ya dilin anadangəlmə olması prinsipi, fəlsəfədə rasionalizm cərəyanı və N. Xomskinin bu cərəyan vasitəsilə fikrin interpretasiyası və s. məsələlər araşdırılmışdır. Adı çəkilən məsələlərin həllinə təşəbbüs göstərilmiş və onların həlli üçün müxtəlif yanaşmalardan istifadə edilmişdir.

Dilçiliyin “Kartezian” adlandırılan əsas nailiyyətlərindən biri heç nə ilə məhdudlaşmayan dilin düşüncə və özünüifadə vasitəsi kimi sərbəst şəkildə istifadə edilə bilməsidir. Həmçinin təqdim edilən araşdırmada “Sintaktik nəzəriyyənin aspektləri” əsərinə istinad edilərək, yeni terminologiyadan istifadə edilmişdir.

Yuxarıda adıçəkilən məsələlər ilə bağlı biz Xomskinin əsərləri təhlil edilmiş, külli miqdarda iqtibaslar və seçmələr gətirməklə dil nəzəriyyəsinin mahiyyəti açıb göstərilmiş, özünü “Kartezian” dilçiliyin davamçısı adlandıran N. Xomskiyə istinadən səriştəlilik və səmərəlilik ayrılmışdır.

**Abstract**

In the presented research, the principle of the language being creative, the famous and influential American linguist Noam Chomsky, who has declared himself a successor of the Cartesian linguistics, language being innate, the rationalism root in philosophy, and N. Chomsky’s own interpretation toward this issues have been investigated. An attempt was made to address the aforementioned issues and different approaches were used to solve them.

One of the main achievements of linguistics called Cartesian - the language, which is not limited by anything, can be freely used as a means of thinking and self-expression. The presented research also used the new terminology, citing the "Aspects of Syntactic Theory".

N.Chomsky’s works have analyzed, the essence of language theory by providing a large number of quotations and selections revealed, and attributed competence and efficiency to N. Chomsky, who called himself a follower of the Cartesian linguistics.

## Giriş

Bugünki dünyada xalqların qarşılıqlı münasibətlərində təbii dil ən müxtəlif formalarda mühüm ünsiyyət vasitəsi kimi çıxış edir. Rəsmi danışıqlardan tutmuş, fərdlərarası ünsiyyətə qədər insan fəaliyyətinin bütün sahələrində daha çox yazılı formada reallaşan ünsiyyət vasitəsi kimi dil aparıcı silah rolunda çıxış edir. Dili hakim olan xalq eqoist olur, özünü əlçatmaz zirvədə hesab edir. Dilçilik tarixində inqilabi çevrilişlər isə bir neçə görkəmli alimin adı ilə bağlıdır. Bunların içərisində V. fon Humboldt, İ.A.Boduen de Kurtene, F. de Sössür, H. Paul, L. Blumfild və N. Xomski xüsusi yer tutmaqdadır.

**N. Xomski kimdir?**

Amerikan dilçisi, filosofu və ictimai xadimi Noam Avram Xomskinin həyatına baxıldığı zaman onun dilçiliyə yeni düşüncə tərzi gətirdiyi açıq-aydın görülməkdədir. O, 1928-ci ildə Filodelfiyada, Rusiyadan mühacirət etmiş yəhudi ailəsində doğulmuşdur. 1945-ci ildən etibarən Pensilvaniya Universitetində fəlsəfə, dilçilik və riyaziyyat elmlərini öyrənmişdir. Onun dilçiliyə gəlməsinin səbəbi siyasətə, məntiqə və riyaziyyata olan sonsuz marağı olmuşdur. Görkəmli dilçi Z. Hərrisin Xomskinin intellektual inkişafında çox böyük təsiri olmuşdur. Onun rəhbərliyi altında N. Xomski dilçilik elminin incəliklərinə yiyələnir, həmçinin gənc alimin təfəkküründə gələcəkdə dilçilikdə böyük əks-sədaya səbəb olan transformasiya ideyaları formalaşmağa başlayır.

N. Xomskinin ilk əsərlərindən biri 1953-cü ildə çap olunmuş *“Sintaktik təhlilin aspektləri”* adlı məqalədir. O vaxtdan bu günə qədər sintaksis onun əsas maraq dairəsində olmuşdur. Onun atası da dilçi, Həbəş dili üzrə mütəxəssis olmuşdur. N. Xomskinin tarixi dilçiliyin əsas prinsiplərini məhz atasından öyrəndiyi qeyd olunur. Lakin biblioqrafiyasından da məlum olduğu kimi, N. Xomski öz yaradıcılığında həbəş dili mövzusuna bir daha qayıtmamışdır. Siyasi mövzuda olan əsərlərini çıxmaq şərti ilə, N. Xomski demək olar ki, bütün yaradıcılığını tamamilə fəlsəfi və linqvistik nəzəriyyəyə həsr etmişdir. Doktor elmi dərəcəsini 1955-ci ildə Harvard Universitetində uzunsürən tədqiqatlardan sonra almışdır. Doktorluq dissertasiyası üzərində işlədiyi müddətdə isə o, artıq dilçilik üçün yeni olan bir neçə məsələ ilə dərindən maraqlanır ki, bunlar da öz növbəsində 1957-ci ildə “dilçilik elmində inqilab” adlandırılan *“Sintaktik strukturlar”* adlı fundamental əsərdə öz əksini tapır. *“Sintaktik strukturlar”* əsərində o, qrammatikanı *<u>hər hansı bir dildə cümlə qurmağa xidmət edən alət</u>* adlandırır (Chomsky, Syntactic Structures, 1957). N. Xomski qrammatikaya “yaradan”, “törədici” alət kimi baxır. “Generativ” sözü də məhz buna işarədir. Həmçinin alim qrammatikanın əsas vəzifəsinin cümlə qurmaq olduğunu düşünür. N. Xomskiyə görə, dil - *“hər biri məhdud uzunluqda və məhdud sayda olan elementlərdən ibarət cümlələr toplusudur (set of sentences)”* (Veysəlli, 2013). Biz belə nəticəyə gəlirik ki, dil cümlələr toplusudursa, deməli, dilin təsvirini verən qrammatikanın da əsas obyekti cümlə olmalıdır.

N. Xomski dilçilikdə transformasinal – generativ cərəyanın banisi olmaqla bərabər, həm də solçu siyasi fikirlərinə görə də çox məhşurdur. Onu *“Amerikanın dahi dissidenti”* adlandırırlar. O, uzun illər Massaçusets Texnologiya İnstitutunda Müasir dil və dilçilik kafedrasına rəhbərlik etmişdir. Fikrimizcə, bu alimin mülahizələrini Azərbaycan dilçiliyində geniş təqdim etməyə ehtiyac vardır. N. Xomskinin adı dünyada humanitar sahədə ən çox sitat gətirilənlərin siyahısında Şekspir və “İncil” ilə yanaşı ilk onluğa daxildir. N. Xomskinin dilçilik sahəsindəki xidmətləri elmi dairələrdə də yüksək səviyyədə qiymətləndirilmişdir. O saysız-hesabsız fəxri adlara yiyələnmişdir. Çikaqo (1967), London (1967), Loyola (1970), Dehli (1972), Massaçusets universitetlərinin, Svartmor (1970), Bard (1971) kolleclərinin fəxri doktoru adına layiq görülmüşdür.

**N. Xomski "iherarxiyası"**

XX əsr dilçilik nəzəriyyəsinin ən görkəmli simalarından biri də Noam Xomskidir. Onun dilçilik elminə gətirdiyi unikal yeniliklərlə məşhurlaşmış və hətta müasir dilçiliyin atası adlandırılmışdır. N. Xomski həm də böyük səs-küyə səbəb olmuş Transformasional Törəmə (Generativ) Qrammatika (TGG) nəzəriyyəsi ilə məşhurdur. Bu nəzəriyyədə o, Universal Qrammatika (UG) adlandırdığı dilin kortəbii biliklərindən istifadə etməklə cümlələri yaradan əqli bacarığı xüsusi olaraq vurğulayır. N. Xomski yazırdı ki, "Transformasional Generativ Qrammatika (TGG) söyləyənin əslində hansı biliyə malik olmasına işarə etməyə çalışır" (Chomsky, 1945). N. Xomski iddia edirdi ki, "insan beyni dil bilikləri üçün proqramlaşdırılıb, bu səbəbdən dil səriştəsi anadangəlmə olur". Alimə görə, "zehin təlim zamanı işləyir (çalışır)" (Chomsky, 1945). Onun mentalist görüşləri yaratdığı nəzəriyyəni daha da dəqiqləşdirmiş və XX əsrin birinci yarısında dəbdə olan biheviorizm ilə eyni səviyyəyə qaldırmışdır. N. Xomski biheviorizmə ciddi zərbə vurmuş, məhz bu zərbədən sonra koqnitiv psixologiyaya təkan verən stimul-cavab nəzəriyyəsi inkar edilmişdir. Dilçilik tarixində bu paradiqma dəyişikliyi "Xomski inqilabı" kimi tanınır.

N. Xomskinin xüsusi fəlsəfəsi "Xomski iherarxiyası" kimi də məşhurdur. N. Smit onun haqqında öz fikirlərini belə izah edir: "O, dilçilikdə inqilab etmişdir – anadangəlmə ideyalar nəzəriyyəsini "diriltmiş", həqiqi müəyyən materiyanı nümayiş etdirmişdir; o, keçmişdə qalan və pis səda doğuran rasional ideyaları bərpa etmiş; və qeyri-şüuri biliyin hər şeyin əsasında durduğunu təmin etmişdir" (Smith, 1999). K. Uayza görə, N. Xomskinin "dil filosofu" olması, onun "dilçi" olmasından daha çox nəzərə çarpırdı. V. Likano "Dil fəlsəfəsi"nə yazdığı ön sözdə deyirdi: "Müasir Giriş"-də qeyd olunur ki, son qırx ilin ən mühüm hadisəsi dil filosoflarının qrammatikaya və sintaksisə diqqət yönəltmələridir ki, bu da formal nəzəri dilçilər tərəfindən formulə edilmişdir. N. Xomski isə bu inkişafın avanqardı (öndə gedəni) idi. Onun əsəri hələ də aktualdır" (Wise, 2011). F. Auqustinonun "N. Xomskinin ideyalar sistemi" kitabında onun fəlsəfi doktrinalarının ətraflı təhlili verilmişdir. O, individualizmin, mentalizmin, rasionalizmin və intellektualizmin inkişafı üzərində geniş dayanmışdır.

N. Xomskinin rasionalizmi barədə danışarkən, qeyd etmək lazımdır ki, alim rasionalizmə empirizmin əksi kimi yanaşmışdır. Onun dil fəlsəfəsi – mentalitet və rasional ağılın xüsusiyyəti kimi əslində biliyin və tanımaq qabiliyyətinin əsas mənbəyidir, – fikrini əsas götürən rasional ideologiyaya təsirdir. Onun əsəri Platon, R. Dekart, B. Spinoza, Q. Leybnis və İ. Kant kimi filosoflardan təsirlənmişdir. Onun nəzəriyyəsi nontizm və nativizmdə özünü göstərən aprior biliyin rasional ideyaları ilə birbaşa əlaqəli olduğunu sübut edir. N. Xomskiyə həmçinin empirizmin və rasionalizmin sintezi axtarışında olan İ. Kant epistemiologiyası da təsir göstərmişdir. Kantın Xomskiyə təsirini Pinker bu şəkildə açıqlayır: "Kantın ağla pərçim edilmiş adi biliklər deyil, abstrakt tipoloji əsaslı nativizm versiyası bu gün daha çox yaşamaq qabiliyyətinə malik versiyadır və onları məsələn, dilçilikdə, evolyusiya və psixologiyada, koqnitiv inkişafda tapmaq mümkündür" (Pinker, 2007).

N. Xomskinin analitik fələfəsini xüsusi olaraq nəzərə almaq lazımdır. Onun tədqiqatı nəzəriyyələşmədə məntiq və dilin mərkəzi yer tutduğunu analitik fəlsəfə sırasına daxil edilir. N. Xomski öz dilçilik təhlilində məntiq və riyaziyyatdan istifadə edərək aydın və formal dili unudur. Transformasional generativ qrammatikada N. Xomski bir sıra qaydalar yaradır ki, bunlar mümkün olan bütün söz birləşmələrini dilin qrammatik cümlələrinə düzgün çevirir. O, hər kəs üçün qrammatik düzgün cümləri qabaqlamaq üçün bir alqoritmdən istifadə edərək bunu edir.

N. Xomskinin analitik fəlsəfəsi ilə yanaşı, koqnitiv psixologiyasını da nəzərə almaq lazımdır. Ona görə, “dil təbii obyekt, beyində fiziki şəkildə mövcud olan, insan şüurunun komponenti və bu növün bioloji ehtiyatının bir hissəsidir” (Chomsky, 2002). Koqnitivizm axtarışlarında o, davranış və dili ətraf mühitin və ya şərtlərin funksiyası kimi anlamaq istəyənlərin davranışlarını tənqid edir. O, öz məhdudiyyətlərini nümayiş etdirir və iddia edirdi ki, dilin bir çox cəhətləri anadangəlmə olur, davranış nümayəndələrinin göz yumduğu cəhətləri tapmaq üçün isə dilin ən dərin strukturlarına baş vurmaq lazımdır.

1959-cu ildə N. Xomski B.F. Skinnerin “Verbal davranış” əsərinə yazdığı tənqidi fikirlərini çap etdirir. Bu əsərində B.F. Skinner funksional və davranış baxımından dil haqqında nəzəri bir hekayəni təqdim edir. B.F. Skinnerin bu yanaşması dilin istifadə olunduğu halları vurğulayırdı. N. Xomski bunu funksional izah hesab edirdi. O deyirdi ki, “davranış elmlərində hazırlanmış məlumatların eksperimental toplanması metodları dilçilik nəzəriyyəsində istifadə olunmur və ya heç lazım deyildir: “məlumatların toplanması qeyri-rəsmi xarakter daşıyır; çox az adam asanlıqla tətbiq edilə bilən və davranış haqqında elmlərdə istifadə olunan eksperimental yanaşmaları və ya kompleks metodları istifadə edir. Bu qeyri-rəsmi prosedurun xeyrinə olan arqumentlər mənə çox ağlabatan görünür; bunlar, əsasən, həqiqətən dünyada daha real olanlardır. Demək, mənim ən yaxşı işim hesab etdiyim linqvistik iş, davranış elmlərinin bir çox cəhətlərinə malik deyildir” (Chomsky, 1970). N. Xomski qeyd edirdi ki, “heyvanlar üzərində tədqiqatlar zamanı əldə edilmiş davranış prinsiplərinin elmi tətbiqi açıqlayıcı adekvatlıqda tam ciddiyyəti ilə mövcud deyildir” (Harrison, 1979). Xarici şərtləri məhdudlaşdıran nəzəriyyə, törəmə qrammatikaya adekvat yanaşa bilməz. O, uşaqların dilə tez yiyələnməsi misallarını təqdim etmişdir. Buraya həm də onların qrammatik cümlə qurmaq bacarıqları və dilin təkamülü də daxil edilir. O, iddia edirdi ki, insan nitqinin, onun inkişafının yaradıcı aspektlərini və dildən istifadəni anlamaq üçün, hər kəs, ilk növbədə, genetik-linqvistik fondu və B.F. Skinnerin davranış metodunu postulat kimi qəbul etməlidir. N. Xomskinin B.F. Skinner metodologiyasını tənqidi və onun əsas müddəaları koqnitiv inqilabda bir təkan olmuş və 1950-1970-ci illər arası Amerika psixologiyasında başlanğıc davranışdan başlanğıc koqnitivliyə doğru dəyişmələrə səbəb olmuşdur. Məhz o, sözləri və kəlmələri anlaşılan fikirlərdə birləşdirməyə qabil anadangəlmə strukturlar məsələsi ilə məşğul olurdu. O iddia edirdi ki, “linqvistik kompetensiya xüsusi növ idrak qabiliyyətlərinin məhsuludur” (Radford A., Atkinson M., Britain D.,, 1999).

Bizim tədqiqatımız üçün N. Xomskinin linqvistik reduksionizminin də böyük əhəmiyyəti vardır. O, praktiki olaraq dili öz qrammatikasına uyğunlaşdırır və yazır: “Dilin qrammatikası əsas etibarilə L-dil nəzəriyyəsidir” (Chomsky, 1957). “Qrammatika ən yaxşı semantikadan asılı olmayan müstəqil tədqiqat kimi müəyyən edilir” (Chomsky, 1957). Onun sözlərinə görə, linqvistika qrammatikaya bərabər tutulur, mənanın müzakirə edilməsi istisna edilir. O, mənanı ikinci hesab edir, bu səbəbdən adətən dilin istifadə olunduğu sosial mövqeyi qəbul etmir. N. Xomskiyə görə, “semantika və praqmatika dil tədqiqatlarının mərkəzi hissəsi sayıla bilməz, və dilin tədqiqi dilçilik sahəsindən kənarlaşdırılmalıdır” (Wise, 2011). N. Xomskinin sintaksis – semantika uyuşmazlığı A. Luriya tərəfindən aşağıdakı kimi təhlil edilir: “müəyyən etmək olur ki, cümlə öz semantik yükündə qrammatik cəhətdən ifadə olunurmu? ... N. Xomskinin bu yanaşması semantik problemlərdə boğulmadan cümlələrin formal sintaktik təhlilində tərəqqiyə nail olmağa imkan verdi” (Luria, 1982).

Beləliklə, N. Xomski “nəzəriyyəsi”-nin və “iherarxiyası”-nın əsas müddəalarını tədqiq edərək belə bir qənaətə gəlirik ki, onun dilçilik əsərləri müasir psixologiya, fəlsəfə və elm üçün

dərin nəticələrə gətirib çıxarmışdır. “Biolinqvistika” adlandırılan bugünki bilik sahəsi onu ruhlandırmışdır. N. Xomski üçün, dilçilik koqnitiv psixologiya sahəsidir. Dilçilikdə həqiqi həssaslıq mental və insani təbiətin aspektlərinin uyğunluğu anlayışını nəzərdə tutur. Belə anlayışın nəticələrindən biri odur ki, dilçilik, psixologiya, fəlsəfə və ayrı müstəqil fənnlər kimi nəzərdən keçirilmir. N. Xomski dilçiliyi ağılın tədqiqinin əsasına gətirmişdir. Onun sözlərinə görə, dilçilik nəzəriyyəsinin bütün dillər arasındakı ümumi oxşarlığını nəzərdən keçirmək lazımdır. Onun unikal fəlsəfəsi dilə malikdir, dilçiliyin mahiyyəti epistemiologiyanın daha geniş sahəsində özünü göstərir. C. Lion belə qənaətə gəlir ki, “əgər indi o, elm sahəsi kimi qəbul edilirsə, onu izləmək lazımdır, amma daha çox N. Xomskiyə görə. O, çağdaş dönəmində bilgilərin böyük inkişafıdır” (Lyons, 1991).

**N. Xomski və “Kartezian dilçiliyi”**

Kartezian dilçiliyinin davamçısı kimi N. Xomski yazır: “Mən düşünürəm ki, bu, bilgilər üçün möhkəm zəmindir”. Bu kartezian ruhla dilə zəruri baxış sərgiləmiş, dilçilik nəzəriyyənin tədqiqini irəli sürmüşdür. O, yazırdı: “Biz deyəsən dil bilgiləri barədə daha sabit element olan ağılın/beyinin vəziyyəti; bundan əlavə, ağılın vəziyyəti – ağlın bir modulu kimi düşünməliyik” (Chomsky., 2001).

İlk öncə onu qeyd etməliyik ki, hər şey R. Dekart ilə başlayır. Belə ki, “Kartezian dilçiliyi” kitabının məhz latınlaşdırılmış adı onun yaranmasını təmin etdi. R. Dekart məhz bu sözün – “kartezian” sözünün dəbdəbəli səslənməsi sayəsində belə məşhurdur (hansı ki, “kartezian” sözü bu və digər kitabların – məsələn, M. Mamardaşvilinin “Kartezian variasiyaları” kitabının adında belə istifadə edilməklə dilçilik terminınə çevrilmişdir). Buna baxmayaraq, bir çox ideyaları N. Xomski “Por-Royal Qrammatika”-sında tapır – göründüyü kimi, yansenistlər yalnız Paskalla məşhur deyillər. Lakin əsas ideyalarını Xomski C. Herderin, A. Şleqelin, bir qədər C. Russonun və başlıcası, V. fon Humboldtun əsərlərində tapır.

N. Xomskinin Kartezian dilçiliyinə münasibətini bildirməzdən əvvəl, “qavrama=öyrənmə” adlı maraqlı nəzəriyyəsini qeyd etmək lazımdır. Daha doğrusu, onlar eyni mexanizmlə reallaşırlar və ona görə də demək olar ki, eynidirlər. Əgər müasir koqnitiv elmin kəşfi olan “yaddaş=xəyal”-ın, daha doğrusu, xatirə və fantaziyanın eyni mexanizmlə təmin olunduğunu müqayisə etsək, bu barədə fikirləşməyə dəyər. N. Xomskinin “Kartezian diliçik” kitabından bəzi fikirlərə nəzər yetirmək daha məqsədəuyğun olar:

Dilin anadangəlmə prinsipindən danışan N. Xomski qeyd edir ki, “növ kimi insan tamamilə spesifik xüsusiyyəti ilə ayrılır, o, ağıl quruluşunun elə bir xüsusi tipinə malikdir ki, onu əsəb orqanlarının quruluşu ilə izah etmək və onun intellektinin ümumi xüsusiyyətləri ilə əlaqələndirmək mümkün deyil. O, öz ifadəsini məqsədin sonsuz çoxluğu və xarici təsir vasitəsilə nəzarətdən azad olma kimi xüsusiyyətlər meydana çıxdıqda dildən hər gün istifadənin “yaradıcılıq aspekti”-də tapır (Хомский, 2005). Beləliklə, R. Dekart təsdiq edir ki, “dil fikrin azad ifadəsinə xidmət etdiyi kimi, hər bir yeni kontekstə reaksiya verir, o, xarici stimula və ya daxili fizioloji vəziyyətə malik ifadələrin sabit assosiasiyalarına uyğun gəlmir” (Хомский, 2005). N. Xomski həmçinin əlavə edir ki, “insan dili, asan identifikasiyalaşan xarici stimulların və ya daxili fizioloji vəziyyətlərin vasitəsilə nəzarətdən azad olaraq, yalnız xəbər, xahiş və ya əmr üçün istifadə olunan kommunikasiya vasitəsi kimi deyil, təfəkkürün və özünüifadənin əsas silahına çevrilə bilər” (Хомский, 2005). İnsan və heyvanların əqli funksiyaları arasında heç bir oxşarlıq mümkün deyil. Heyvanlar, insanın başa düşdüyü (bu bir qədər balaca uşaqlara

münasibətdə də doğrudur ki, uşaqlığın hətta ən canlı xatirələrinin qarışıqlığı və qeyri-məntiqiliyi ilə izah olunur), "əşyalar" deyil, "hadisələr" dünyasında yaşayırlar. A.V. Şleqeldə "heyvani asılılıq" prinsipi, insanın əqli həyatı üçün xarakter olan "özfəaliyyət prinsipinə", "şüurlu özbaşınalıq" prinsipinə qarşı kəskin qoyulur. Məhz bu prinsip insan dilinin əsasında dayanır. İnsanı təcrübəli verilənlərin vahidliyini və ardıcıllığını axtarmağa, hissi təəssüratları müqayisə etməyə vadar edir (bu isə bu və ya digər mental işarələrin olmasını tələb edir), habelə insanın unikal bacarığını və "dil vasitəsilə ifadə edilən, heç cür hisslə aydın olmayan" tələbini əhatə edir. Nəticədə biz  insan dilinə malik oluruq ki, o, hər şeydən əvvəl, "fikrin orqanına, özünü ifadənin orqanına" və yalnız ikinci növbədə "qarşılıqlı ünsiyyətə"xidmət edir. N. Xomskinin Kartezian dilçiliyinin mühüm problemlərindən biri də cümlənin sintaktik strukturudur, bura cümlənin alt və üst qatlarının konsepsiyası daxildir. Belə ki, N. Xomskinin cümlə anlayışına gəldikdə isə onu qeyd edə bilərik ki, onun sintaktik təlimində cümlə anlayışı "alt" və "üst" struktur ilə bağlıdır. Yeni terminologiyanı istifadə edərək, biz aparılan müqayisəni cümlənin "alt strukturu" ilə "üst strukturu" arasındakı fərq kimi göstərə bilərik. Birinci bazisli mücərrəd struktur olub, cümlənin semantik şərhini müəyyən edir; ikinci, vahidlərin yüksəklik quruluşu olub, onun fonetik şərhini müəyyən edir və real ifadənin fiziki, qəbul olunan və ya mənşəyi olan forması ilə əlaqədardır. Bu terminlərdə biz Kartezian dilçiliyinin ikinci fundamental mülahizəsini, məhz: alt və üst strukturlarının bərabər olmasının heç də vacib olmadığı mülahizəsini irəli sürə bilərik. Cümlənin semantik şərhi üçün mühüm olan bazis quruluşu onun konkret komponentlərinin qruplaşmasında və düzülüşündə bilavasitə vacib olmayaraq müşahidə olunur. Belə ki, cümlənin alt strukturunun reallığı – bu, gizli mental reallıqdır, ifadənin fikrən deyilişinə tələffüz olunan sözün üst formasının sadə, eynimənalı şəkildə uyğun gəlib-gəlməməsindən asılı olmayaraq yaranan bir şeydir. Gətirilən mülahizələr bu və ya digər dərəcədə yeni yaranan transformasiyalı qrammatikanın istənilən nəzəriyyəsinə aid ola bilər. Belə nəzəriyyənin də əsas məsələsi alt strukturlar və onların üst strukturları ilə qarşılıqlı əlaqəsini yaradan qaydalar sistemini, habelə müvafiq olaraq alt və üst strukturların semantik və fonoloji şərhinin qaydalarını yaratmaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, "Por-Royal" dilçilik tədqiqatlarında inkişaf etdirilən alt və üst strukturları nəzəriyyəsində gizli şəkildə rekursiv mexanizmlər saxlanır ki, bu nəzəriyyə ilə təsvir olunan sonuncu vasitələrin sonsuz tətbiqini təmin edir; dilin hər bir uyğun nəzəriyyəsi belə olmalıdır.

Beləliklə, biz müəyyən etmiş oluruq ki, dilin istifadəsinin yaradıcılıq aspektinin təhlili o mülahizəyə söykənir ki, gerçəklikdə dil və fikri proseslər eynidir; dil bizə fikir və hisslərimizi azad ifadə etmək üçün ilkin vasitələri çatdırır, habelə yaradıcılıq təxəyyülünü işə salır. Dilin iki tərəfi var – daxili və xarici. Cümləni, onun fikri hansı üsulla ifadə etməsi və fiziki görünüşü nöqteyi nəzərindən, başqa sözlə, onun semantik və fonetik interpretasiyası planında öyrənmək olar. Belə ki,  N. Xomski üçün, dilçilik nəzəriyyəsinin mərkəzi problemi adi insanın dil bilgisi arasında onun doğma dili mənimsəyərək əldə etdiyi cüzi bilgi haqqında uyğunsuzluq faktıdır, yəni onun dediklərindən belə nəticəyə gəlirik ki, uşaq dili onu əhatə edənlərin düz və ya səhv dilinə əsaslanaraq əldə edir. Buna baxmayaraq, sonda o, transformasional törəmə qrammatika modelinə uyğun mürəkkəb və xüsusi (spesifik) qrammatikaya malik dilə yiyələnmiş olur, yəni uşağın beynində anadangəlmə mexanizm ("daxili mexanizm") mövcuddur. Bu mexanizm həm doğma, həm də doğma olamayan dil bacarıqlarının mənimsənilməsində universal qrammatikanın müxtəlif nitq vərdişlərinin əldə edilməsinə imkan yaradır. Nəticədə, uşaq böyüdükcə dil bacarıqlarından müntəzəm istifadə edərək sətiştəli nitqini formalaşdırır.

**Nəticə**

N. Xomskinin nəzəriyyəsinin əsas müddəalarını tədqiq edərək belə bir qənaətə gəldik ki, onun dilçilik əsərləri müasir psixologiya, fəlsəfə və elm üçün dərin nəticələrə gətirib çıxarmışdır. Bizim "biolinqvistika" adlandırdığımız bugünki bilik sahəsi onu ruhlandırmışdır. N. Xomski üçün linqvistika (dilçilik) – koqnitiv psixologiya sahəsidir. Dilçilikdə həqiqi həssaslıq mental və insani təbiətin aspektlərinin uyğunluğu anlayışını nəzərdə tutur. Belə anlayışın nəticələrindən biri odur ki, dilçilik, psixologiya, fəlsəfə və ayrı avtonom fənnlər kimi nəzərdən keçirilmir. N. Xomski dilçiliyi ağlın tədqiqinin əsasına gətirmişdir. Onun sözlərinə görə, dilçilik nəzəriyyəsini bütün dillər arasındakı ümumi oxşarlıqla nəzərdən keçirmək lazımdır. Onun unikal fəlsəfəsi dilə malikdir – dilçiliyin mahiyyəti – epistemiologiyanın daha geniş sahəsində nüfuzlu yerdir.

Linqvistikanın "Kartezian" adlandırılan əsas nailiyyətlərindən biri insan dilinin normal istifadədə bir-birindən müstəqil olaraq ayrılan xarici stimullar və daxili vəziyyətlərin nəzarətindən azad olması, məsələn, heyvanların psevdo-dilinin əksinə olaraq, hər hansı praktiki rabitə funksiyası ilə məhdudlaşmamış olmasının dərk edilməsidir. Beləliklə, dil heç nə ilə məhdudlaşmayan düşüncə və özünüifadə vasitəsi kimi sərbəst şəkildə istifadə edilə bilər.

Dilin prinsiplərinin və gerçək məntiqin şüursuz xarakteri və onların əhəmiyyətli dərəcədə dilin mənimsənilməsində ilkin şərt təşkil etməsi, lakin "təhsil"-in və ya "öyrənmə"-nin nəticəsi kimi meydana çıxmaması "Kartezian" dilçiliyinin ümumi müddəalarıdır. Qısa şəkildə desək, dilin mənimsənilməsi – bunun üçün uyğun olan xarici şərtlər altında nisbətən əlverişli olan bacarıqların inkişafı və yetişməsidir. Mənimsənilən dilin forması əhəmiyyətli dərəcədə daxili faktorlarla əhatə olunmuşdur. Uşaq istənilən dili öyrənməyə ona görə qadirdir ki, insan dilləri arasında fundamental uyğunluqlar vardır, çünki "insan hər yerdə eynidir". Bundan əlavə, dil qabiliyyətinin formalaşması əqli inkişafın müəyyən "kritik dövr"-ündə optimal surətdə baş verir.

Essensialist kimi, N. Xomski səriştəlilik və səmərəliliyi ayırır. Səriştəlilik – dil bilgisi olub – bütün cümlələrin struktur xüsusiyyətlərinin implisit anlaşılmasıdır. Səmərəlilik real zaman rejimini özünə birləşdirir və əsas səlahiyyətlə ətraf aləmin pozulması və yaddaşın məhdudlaşması zamanı radikal cəhətdən ayrıla bilir.

## Ədəbiyyat


Chomsky. (1945). *Aspects of the Theory of Syntax.* Massachusets: MIT.

Chomsky. (1957). *Syntactic Structures.* Mouton: The Hague.

Chomsky. (1970). *Deep structure, surface structure and semantic interpretation.* Tokyo.

Chomsky. (2002). *On Nature and Language.* England: Cambridge University Press.

Chomsky. (2001). *Knowledge of Language: it's nature, origin and use.* New York, China: Foreign Language Teaching and Research Press.

Harrison. (1979). *An Introduction to the Philosophy of Language.* London: Macmillan.

Luria. (1982). *Language and Cognition.* New York.

Lyons. (1991). *Chomsky.* London: Fontana Press.

Pinker. (2007). *the Stuff of thought: Language as a Window into Human Nature.* London: Penguin.

Radford A., Atkinson M., Britain D.,. (1999). *Linguistics: An Introduction.* England: Cambridge University Press.

Smith. (1999). *Ideas and Ideals.* England: Cambridge University Press.

Veysəlli, F. (2013). *Dilçiliyin əsasları.* Bakı: Mütərcim.

Wise. (2011). *Chomsky and Deconstruction.* New York: Polgrave Macmillan.

Хомский. (2005). *Картезианская лингвистика. (История лингвофилософской мысли.).*